# *Türkiyəli deputat:* “Qarabağı yenidən qurmalı və bərpa etməliyik”

“Qarabağı yenidən qurmalı və bərpa etməliyik. İş adamlarımız energetika, mədən sənayesi, kənd təsərrüfatı və digər istiqamətdə fəaliyyət göstərmək üçün gələcək və Qarabağı canlandıracaq”.




AZƏRTAC xəbər verir ki, bunu Ağdamda səfərdə olan Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının Türkiyə Böyük Millət Məclisindəki deputatı İbrahim Kürşat Tuna bildirib.

O deyib: “Ermənilərin azərbaycanlılara və türklərə etdiyi vəhşilikləri hamımız bilirik. Onlar tariximizə, memarlığımıza, hisslərimizə böyük zərbə vurublar. Zülm yerdə qalmadı və Qarabağ yenidən bizimdir”.

Azərbaycan.- 2021.-12 sentyabr.- S.2.